Jl. Mas Putih Blok D No 29
Permata Hijau Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Fax : 549 17 45
E-mai: azjkt@azembassy.or.id

Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

# Press-reliz

20 yanvar 2009-cu ildə Azərbaycan Respublikasının Səfirliyi İndoneziyanın Syarif Hidayətullah adına Dövlət İslam Universiteti ilə birgə Universitetin Ədəbiyyat və Humanitar Elmlər fakültəsində Azərbaycan Guşəsinin açılış mərasimini və "Azərbaycan Bu Gün" adlı seminar keçirmişdir.

Açılış mərasimində çıxış edən prorektor Sudarnoto Əbdul Hakim, Ədəbiyyat və Humanitar Elmlər fakültəsinin dekanı Əbdul Xayr Azərbaycan Guşəsinin açılmasını yüksək qiymətləndirmiş, Guşənin Azərbaycanla İndoneziya arasında əlaqələrin inkişafına töhfəsini verəcəyinə inandıqlarını, ali təhsil ocağı ilə əməkdaşlığın davam etdiriləcəyinə ümid etdiklərini bildirmişlər.

Səfir İbrahim Ə. Hacıyev Azərbaycan Prezidenti İlham Əliyevin İndoneziya ilə əlaqələrə mühüm əhəmiyyət verdiyini qeyd etmişdir. O, Azərbaycan Guşəsinin İndoneziya tələbələrinə, alimlərinə və geniş ictimaiyyətə dost Azərbaycan xalqı haqqında məlumatlı olmağa xidmət edəcəyini və gələcəkdə bu kimi guşələrin digər təhsil ocaqlarında açılacağına ümid etdiyini bildirmişdir.

Guşədə tarix, incəsənət, mədəniyyət, iqtisadiyyat, təhsil və s. mövzularda kitab kolleksiyası, kompüter, audio və video ləvazimatlar vardır.

İbrahim Hacıyev "Azərbaycan Bu Gün" adlı seminarda çıxış edərək, Azərbaycan, onun geosiyasi, geoiqtisadi, geostrateji əhəmiyyəti, tarixi, xalqı, dini mənsubluğu, mədəniyyəti, turizmi, iqtisadi, regional və beynəlxalq əməkdaşlığı haqqında məlumat vermiş, dinləyicilərin suallarını cavablandırmışdır. Azərbaycanın paytaxtı Bakıya Sovet hərbi qüvvələrinin 1990-ci ilin 20 yanvarındakı hücumu nəticəsində 137 nəfərin ölümü, 841 nəfərin həbsi, 700 nəfərin yaralanması ilə nəticələnmiş faciəli hadisələrə onun çıxışında xüsusi yer ayrılmışdır.

İbrahim Hacıyev seminar iştirakçılarını Ermənistan-Azərbaycan münaqişəsi, nəticədə Azərbaycan ərazilərinin 20 %-in erməni silahlı qüvvələri tərəfindən işğal olunması barədə məlumatlandırmışdır.

İndoneziya Xarici İşlər Nazirliyinin əməkdaşı Hikmət Moelcavan UİN-də Azərbaycan Guşəsinin açılmasının Azərbaycan-İndoneziya ikitərəfli əlaqələrin inkişafında əlamətdar hadisə olduğunu bildirərək, Guşənin dost ölkə və xalqlar arasında əlaqələrin və əməkdaşlığın inkişafına, Azərbaycanın İndoneziyada daha yaxından tanınmasına töhfəsini verəcəyinə əminlik ifadə etmişdir.

21 yanvar 2009-cu il